# "YARAT" müasir incəsənətin ünvanı

Təxminən 4 il əvvəl Azərbaycan incəsənət aləminə "YARAT" adlı yeni nəfəs gəldi... Kökü "yaratmaq" sözündən götürülən bu, həqiqətən yaradıcı, qeyri-kommersiya təşkilatı elə ilk gündən fərqli, biri-birindən maraqlı və aktual layihələri ilə ictimaiyyətin diqqətini cəlb etdi...




"YARAT" Azərbaycanda müasir incəsənətin inkişafı və onun cəmiyyət tərəfindən dərk olunması sahəsində fəaliyyəti, habelə ölkə daxilində və beynəlxalq səviyyədə Azərbaycan incəsənətinin təbliğ və təmsil olunması ilə yanaşı sənət həyatımıza yeni bir ab-hava gətirdi, müasir incəsənət haqqında hamıda geniş təsəvvür yaratmağa nail oldu. 2011-ci ildə Aida Mahmudova tərəfindən təsis olunan bu qurumun əsas məqsədi sərgi proqramları, incəsənət təhsil tədbirləri və festivalların təşkilidir. "YARAT" yerli və beynəlxalq incəsənət şəbəkələri, o cümlədən, müxtəlif fondlar, sərgi salonları və muzeylər arasında dialoqun qurulması və təcrübə mübadiləsinin həyata keçirilməsi sahəsində də çalışır. Həyata keçirdiyi təhsil proqramları silsiləsi qlobal səviyyədə mədəniyyətlərarası dialoqun və əməkdaşlığın yaranması üçün imkan yaradır. Yaradıcı gəncləri bir araya gətirən və onların yaradıcılığını ölkədə və dünyada təbliğini özünə hədəf seçən "YARAT" qeyri-kommersiya təşkilatı bu istiqamətdə mühüm işlər görür.

### İncəsənət təhsil layihələri

"YARAT" Müasir İncəsənət Məkanı peşəkar sənətkarlar, həvəskarlar, uşaqlar və incəsənətin tədrisi ilə məşğul olanlar, qısaca desək, hər kəs üçün nəzərdə tutulan təhsil proqramları həyata keçirir. Təşkilat yerli və beynəlxalq rəssamlar cəmiyyətləri, o cümlədən, fondlar, incəsənət məktəbləri və muzeylər arasında dialoqun qurulması və təcrübə mübadiləsinin aparılması sahəsində xidmət göstərir. Mühazirələr, seminarlar, məşğələlər, habelə xaricdə tərəfdaş təşkilatlarla birlikdə təqaüd proqramları təşkil edir. "YARAT"-ın təhsil layihələri təşkilatın fəaliyyətinin əsasıdır və onların icra müddəti ilbəil uzadılır.

"YARAT"-ın gənc rəssamlar üçün nəzərdə tutulan, adının bir mənası da "tərəqqi" olan ARTIM layihəsinin əsas məqsədi ölkənin gənc nəslinin istedadlı nümayəndələrini incəsənət sahəsində karyera qurmağa təşviq etmək, habelə gənc rəssamlara peşəkar sərgilərdə öz əsərlərini nümayiş etdirmək üçün müvafiq şərait yaratmaqdır. Təsis olunduğu vaxtdan bəri "YARAT" təşkilatı artıq 130-dan çox layihə həyata keçirib.

Qurumun dəstəyi ilə Leyla Əliyevanın, Aida Mahmudovanın, Hüseyn Haqverdinin, Məmməd Mustafayevin, Ramal



Aida Mahmudova, "YARAT" Müasir İncəsənət Məkanının təsisçisi və rəhbəri



Kazımın və xarici sənətkarlar Dejan Kaludjeroviçin, Mahmud Baxşinin, Marqret Ayherin, Şaarbek Amankulun, Vilyam Kobbingin və başqalarının sərgiləri təşkil olunub.

"YARAT" Müasir İncəsənət Məkanı öz qarşısına müasir Azərbaycan incəsənətini tam və maraqlı şəkildə təqdim etmək, habelə ictimaiyyəti dünya incəsənətində yeni cərəyanlar və adlarla tanış etmək məqsədini qoyub. Bu baxımdan qurumun 2012-ci ildə yaratdığı kommersiya əsaslı «YAY» qalereyası rəssamların yaradıcılıq sınaqları üçün daimi meydançadır. Bu sərgi salonunda yerli və xarici rəssamların əsərləri nümayiş olunur. Satış-sərgilərdən əldə olunan bütün mənfəət rəssamla "YARAT" Müasir İncəsənət Məkanı arasında bölüşdürülür. "YARAT" Müasir İncəsənət Məkanının əldə etdiyi mənfəət payı müvafiq proqramların maliyyələşdirilməsi üçün istifadə edilir.

## "Zirvə"yə doğru

"YARAT" İncəsənət Məkanının qurucusu Aida Mahmudova Londonda məktəbi bitirdikdən sonra məhşur Central Saint Martins İncəsənət və Dizayn Kollecində oxuyub. Bakı rəssamlarının geniş yaradıcılıq potensialı ilə yaxından tanış olandan sonra yeni birlik yaratmağın vacibliyi qərarına gəlib. Rəssam «YARAT» qeyri-kommersiya təşkilatının vasitəsilə elə bir sənət özülü yaratmaq istəyir ki, müasir Azərbaycan rəssamları peşəkar sərgilərdə yetişərək, yerli və beynəlxalq səviyyədə geniş auditoriya qarşısına çıxa bilsinlər. O, "YARAT"-ın simasında, həmçinin öz fəaliyyətində, təsviri incəsənətdə Şərq və Qərb mədəniyyətlərinin sintezini təmsil edə biləcək bir qurum görmək istəyir. İşini sevən bir rəssam kimi Aida Mahmudovanın rəhbərliyi ilə bir-birindən maraqlı layihələr son illər təkcə Azərbaycanda deyil, ölkəmizdən kənarda da maraqla qarşılanmaqdadır. İncəsənətimizin təbliği istiqamətində gördüyü işlərə görə "YARAT" Müasir İncəsənət Məkanının təsisçisi və rəhbəri Aida Mahmudovaya "Azərbaycan mədəniyyətinə dəyərli töhfə" nominasiyasında "Zirvə" mükafatını nazir Əbülfəs Qarayev təqdim edib.



**"YARAT" Müasir İncəsənət Məkanının əldə etdiyi mənfəət payı müvafiq proqramların maliyyələşdirilməsi üçün istifadə edilir.**

Dörd illik fəaliyyəti dövründə özünü tamamilə təsdiqləmiş qeyri-kommersiya təşkilatının Bakıda yerləşən "YARAT" Müasir İncəsənət Mərkəzinin açılış mərasimində Azərbaycanın, eləcə də dünya mədəniyyət və incəsənət aləminin nüfuzlu şəxsləri, görkəmli ictimaiyyət xadimləri, diplomatik missiyanın nümayəndələri - Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Ömər Eldarov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, dünya şöhrətli rəssam Tahir Salahov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, gənclər və idman naziri Azad Rəhimov, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, "ÜNS" Yaradıcılıq Səhnəsinin rəhbəri, AMEA-nın müxbir üzvü, professor Nərgiz Paşayeva "Central Saint Martins" Universitetinin incəsənət, mədəniyyət və dram proqramları üzrə dekanı Mark Danhill, Moskva Dövlət Müasir İncəsənət Mərkəzinin art-direktoru Leonid Bajanov, "Cosmoscow" Müasir İncəsənət Beynəlxalq Yarmarkasının rəhbərləri Marqarita Puşkina və Sandra Nedvetskaya, "Guggenheim UBS MAP Global Art Initiative" layihəsinin Yaxın Şərq və Şimali Afrika üzrə kuratoru Sara Raza, "Art finans" şirkətinin baş direktoru və "Qazprombank"ın vitse-prezidenti Mariya Sitnina, Avstraliyada Tasmaniya Müasir İncəsənət Muzeyinin sərgilər və kolleksiyalar üzrə rəhbəri Varenne Oliviyer, Londonda "ICON Gallery" sərgi mərkəzinin direktoru Conatan Uotkins iştirak ediblər.

Yeni mərkəz YARAT-ın başlıca fəaliyyət istiqaməti olan təhsil proqramlarını daha da inkişaf etdirib beynəlxalq auditoriya və institutlarla əməkdaşlıq üçün daha çox imkan yaradacaq. Əsrlər boyu Bakı mədəni mübadilə və yaradıcılıq məkanı olub. Əminliklə demək olar ki, paytaxtın yeni sərgi mərkəzi Azərbaycan incəsənətinin çiçəklənməsinə böyük töhfə verəcək.

**Mehparə SULTANOVA**



